**Əliheydər Eldar oğlu Mahmudov**

**UOT: 339.5.025.7: 339.132.2; JEL: P41, O32, Q55**

# Azərbaycanda iqtisadi islahatlar proseslərində texnoparkların rolunun artırılması perspektivləri

***Xülasə***

*Məqalədə Azərbaycanda iqtisadi islahatlar proseslərində texnoparkların rolunun artırılması perspektivləri tədqiq edilmişdir. Bu məqsədlə, iqtisadi islahatların mahiyyəti və bu proseslərdəki çətinliklər təhlil olunaraq açıqlanmışdır. Texnoparkların çoxfunksiyalı xüsusiyyətləri hesabına iqtisadi proseslərə multiplikativ təsiri baxılmışdır. İqtisadi islahatların sürətləndirilməsində texnoparkların rolu və əhəmiyyəti əsaslandırılmışdır. Emal sənayesi sahələrinin yüksək texnologiyalar əsasında inkişafında texnoparkların səmərəliliyi açıqlanmışdır. Rəqabətqabiliyyətli və ixracyönlü məhsulların istehsalında və müəssisələr şəbəkəsinin yaradılmasında texnoparkların potensialı verilmişdir. Ölkədə texnoparklar şəbəkəsinin yaradılması imkanları araşdırılmış və bunlarla bağlı problemlər sistemləşdirilmiş, həlli yolları göstərilmişdir. Texnoparkların iqtisadi inkişaf proseslərinə və onların səmərəliliyinə təsiri araşdırılmış və qiymətləndirilmişdir. Texnopark institutunun qlobal iqtisadi tendensiyalar və çağırışlar şəraitində təkmilləşdirilməsi problemləri baxılmışdır. Azərbaycanda iqtisadi islahatların dərinləşdirlməsində və onların sürətləndirilməsində proseslərində texnoparkların rolunun artırılması perspektivləri üzrə əsaslandırılmış təkliflər hazırlanmışdır.*

***Açar sözləri:*** *iqtisadi islahatlar, texnoparklar, investisiyalar, iqtisadiyyatda texnoparkların rolunun artırılması, texnoparkların iqtisadiyyata təsiri, texnoparkların iqtisadi artımda rolu, texnoparkların iqtisadi islahatlarda strateji əhəmiyyəti.*



## Giriş

İqtisadiyyatın mövcud mexanizmlərinin yenilənməsində, daha təsirli tədbirlərin görülməsində fərqli yanaşmalar tələb olunur. Belə ki, dünya iqtisadiyyatının əsas mexanizmlərinin təkmilləşdirməyə ehtiyacı olduğu bir şəraitdə, yeni və çoxfunksiyalı iqtisadi mexanzimlərin işlənib hazırlanması və həyata keçirtilməsi zərurəti yaranır. Dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrinin əksəriyyətində yeni iqtisadi hədəflərə çatmaqda, iqtisadiyyatın şaxələndirilməsində, onun dayanıqlılığının artırılmasında məhsuldar, həm də innovatik funksiyaların hazırlanması və reallaşdırılması prosesləri üzrə təcrübə diqqət çəkir. Bu proseslərin avtonom və sahibkarlar, biznes subyektləri üçün səmərəli ola biləcək iqtisadi məkanlarda və fəaliyyət komplekslərində həyata keçirilməsi məsələləri də kifayət qədər cəlbediciliyi ilə fərqlənir. Belə mexanizmlərdən və iqtisadi vasitələrdən biri də özünün çoxfunksiyalı xüsusiyyətləri ilə fərqlənən texnoparklardır və texnopark institutudur. Dünyanın bir sıra aparıcı ölkələrində, o cümlədən ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, İtaliya, Yaponiya kimi ölkələrdə innovasiyaların yayılması, işlənilməsi və tətbiqi proseslərinin çevikliyi, səmərəliliyi hesabına yüksək texnologiyalara sahib olmuş və güclü iqtisadiyyat yarada bilmişlər. Bu proseslərdə isə önəmli yeri - texnoparklar və texnopolislər tutmuşlar, hazırda da texnopark institutu hesabına həmin ölkələrdə gələcəyin texnologiyaları işlənir, mənimsənilir və yüksək nəticələr əldə olunur. Texnologiyalar və innovasiyaların inkişafına ABŞ-da hər il orta hesabla 600-700 mlrd. dollar, Böyük Britaniya, Yaponiya, Almaniya və

*©Əliheydər Eldar oğlu Mahmudov Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, doktorant.*
*E-mail: aliheydar_89@mail.ru*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

Fransada 250-300 mlrd. dollar, Çində isə rekord məbləğdə 700-800 mlrd. dollar vəsait ayrılır və bunlarla bərabər, investisiya mühiti yaxşılaşdırılır. Eyni zamanda, texnoparklar şəbəkəsinin yaradılması hesabına və bu sahəyə vergi, gömrük güzəştlərinin verilməsi, dövlət tərəfindəm maliyyə dəstəyinin göstərilməsi sayəsində yüksək nəticələrin əldə edilməsi dünya təcrübəsində geniş məlumdur [10].

Texnoparkların maliyyə təminatının həyata keçirilməsində əsas maliyyə mənbələri kimi təsisçilərin və sponsorların maliyyə resursları, texnoparkın yaradılması üçün yaradılan torpaq sahəsinin dəyəri, kommersiya kreditləri, qrantlar və subsidiyalar, texnoparkın tikdiyi binaların satışından əldə etdiyi vəsaitlər və s., həmçinin xarici investisiyalar diqqət çəkirlər. Texnoparklarında innovatik yanaşmalara üstünlük verirlər və bu sahədə ixtisaslaşmış kompaniyaların əksəriyyəti universitetlərlə və tədqiqat institutları, həmçinin digər “beyin mərkəzləri” – tədqiqat mərkəzləri ilə sıx əməkdaşlıq əlaqələrinə malik olurlar [11]. Məsələn, texnoparklar Avropa Birliyi ölkələrinin iqtisadi proseslərinə dərin təsir edən mexanizmlərdən biri hesab olunur və müasir dövrün yüksək texnologiyalarının mənimsənilməsində və tətbiqində bu çox funksiyalı fəaliyyət mexanizmlərindən intensiv və məhsuldar istifadə diqqət mərkəzindədir [14]. Texnoparkların fəaliyyətində başlıca xüsusiyyətlərdən biri də, bu texnoparklarda istehsal olunan məhsulların əhəmiyyətli hissəsinin ixrac edilməsindən ibarətdir [9]. Texnoparklarda istehsalın inkişaf etdirilməsi, bununla əlaqədar səmərəli fəaliyyət sahələrinin formalaşdırılması, innovasiyaların işlənməsi, yayılması və tətbiqinin təmin edilməsi, bu məqsədlə həmin sahələrə yerli və xarici investorların cəlbedilməsi potensialları xeyli yüksəkdir. Düzdür, bu istiqamətdə fəaliyyət ölkəmiz üçün yenidir, amma digər tərəfdən onların fəaliyyəti milli iqtisadiyyatın innovasiyalaşdırılması istiqamətində daha təsirli nəticələrə gətirib çıxara bilər [12]. Bunlarla belə, dünyada çoxlu sayda texnoparklar, o cümlədən, bu qəbildən olan digər cəlbedici iqtisadi mexanizmlər - sərbəst iqtisadi zonalar, xüsusi iqtisadi zonalar, texnopolislər, sənaye parkları, sənaye zonaları, sənaye məhəllələri, klasterlər, yüksək texnologiyalar və innovasiyalar zonaları yaradılmasına baxmayaraq, bu qurumların əhəmiyyətli bir hissəsi maliyyə təminatının davamlı olmaması səbəbindən səmərəli fəaliyyət göstərə bilməmişlər [13]. Buna görə də, texnopark institutunun inkişaf etdirilməsi proseslərində bütün mühüm aspektlərə kompleks yanaşma təmin olunmalıdır. Xüsusilə iqtisadi islahatlar proseslərində texnoparkların rolunun gücləndirilməsinə imkan verən hər bir element və komponentin yetərincə dəyərləndirilməsi və nəzərə alınması vacib hesab olunur.

**Azərbaycanda iqtisadi islahatlar şəraitində texnoparkların rolunun artırılmasını şərtləndirən amillərin təhlili**

Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi və onun neftdən asılılığının azaldılması məsələləri kontekstində iqtisadi islahatların dərinləşdirilməsi bir zərurət kimi ortaya çıxmışdır. Belə ki, son illərdə ölkəmzidə iqtisadi inkişaf proseslərinin qlobal təsirdən yaranan vəziyyətə uyğun şəkildə təkmilləşdirilmək və yeniləmək kimi mürəkkəb vəzifələrin öhdəsindən gəlmək istiqamətində sistemli işlər aparılır. İqtisadiyyatın strukturu yenilənir və təkmilləşdirilir, eyni zamanda dünya təcrübəsidə səmərəliliyi ilə diqqət çəkən iqtisadi mexanizmlərin tətbiqi məsələlərinə də ciddi önəm verilməkdədir. Bunlarla bağlı olaraq, konseptual yanaşmalar və strateji hədəflər əsas etibarı ilə strateji yol xəritələrində verilmişdir. Bu strateji sənədlərdə diqqət çəkən məqamlardan biri də iqtisadiyyatın innovasiyalaşdırılması və yüksək texnologiyaların tətbiqinin sürətləndirilməsi ilə bağlıdır. Ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi”ndə milli iqtisadiyyatın müxtəlif sahələrində innovatik yanaşmaların təmin edilməsi ilə bağlı strateji hədəflər öz əksini



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

tapmışdır [1]. Bu istiqamətlərdə qarşıdan duran vəzifələrin öhdəsindən gəlmək üçün yüksək texnologiyaların və innovasiyaların işlənməsi və tətbiqində səmərəliliyi ilə fərqlənən iqtisadi mexanizmlərə və institutlara önəm verilməsi vacibdir. Belə iqtisadi mexanizmlərdən biri də, əvvəldə qeyd etdiyimiz kimi, texnoparklardır və ölkəmizdə texnopark institutunun inkişaf etdirilməsi prosesləri artıq başlamışdır. Bu mexanizmlər həm də iqtisadiyyatın innovasiyalaşdırılması və modernizasiya edilməsi baxımından tələb olunandır. Şəkil 1-də texnoparkların çoxfunksiyalılıq xüsusiyyətlərinin təxmini sxemini hazırlamışıq və çalışmışıq ki, texnopark institutunun üstün cəhətləri, səmərəlilik təmin edən elementləri burada öz əksini tapsın, eyni zamanda texnoparklar elm-tədqiqat proseslərini özlərində birləşdirməklə, bu sahədə ixtisaslaşan müxtəlif müəssisələrin, biznes subyektlərinin və investorların birgə fəaliyyət məkanı kimi rolunu açıqlamağa səy göstərmişik.

**Şəkil 1.**

**Texnoparkların çoxfunksiyalılıq xüsusiyyətlərinin təxmini sxemi**




**Sxem müəllif tərəfindən hazırlanmışdır.**

Texnoparklar əsas etibarı ilə müxtəlif fəaliyyət sahələrinin, ilk növbədə, elm, istehsalat, maliyyə-investisiya qurumlarının, digər müəssisələrin qarşılıqlı fəaliyyətini təmin edən məhsuldar fəaliyyət ərazisidir. Texnoparklarda müxtəlif istehsal sahələrinin təşkili, elmi işləmələrin və ixtiraların istehsal proseslərinə tətbiqi daha səmərəli şəkildə həyata keçirilir və bu kimi fəaliyyət zonalarına xarici investorların marağı kifayət qədər yüksək olur [2]. Bundan əlavə, əsas etibarı ilə texnoparklar çoxfunksiyalı fəaliyyət mexanizmləri kimi daha geniş yayılmışlar [3]. Texnopaklarda alimlərin, ixtiraçıların, səmərələşdiricilərin, konstruktorların işlədikləri, əldə etdikləri, hazırladıqları texnoloji yeniliklər, kəşflər, ixtiralar, innovasiyalar sistemli və davamlı şəkildə istehsal proseslərinə tətbiq olunanadək vahid tsikldə baxılır [7].

Ölkəmizdə qeyri-neft sektoru sahələrinin inkişaf etdirilməsi istiqamətində son illərdə dövlət tərəfindən davamlı tədbirlər görülməkdədir. Xüsusilə, emal sənayesi sahələri üzrə dinamik artımın təmin olunması strateji vəzifələr sırasındadır. Şəkil 2-də Azərbaycanda emal



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

sənayesi üzrə məhsul həcminin 2014-2018-ci illərdə dinamikası verilmişdir və göründüyü kimi 2018-ci ildə 2017-ci illə nisbətdə 9,3 %-ə qədər artım vardır.

**Şəkil 2.**

**Azərbaycanda emal sənayesi məhsulunun dinamikası (mlrd. manat)**




**Mənbə: ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.**

Özlüyündə bu artım heç də az deyildir, amma əvvəldə qeyd etdiyimiz kimi iqtisadiyyatın neftdən asılılığının minimuma endirilməsi üçün daha dayanıqlı və yüksək tempə malik qeyri-neft sektoru sahələrindən ibarət iqtisadi artım mənbələrinin formalaşdırılması tələb olunur və bu proseslərdə texnoparklar kifayət qədər səmərə vermək potensialı ilə fərqlənirlər. Texnoparklarda dövlət tərəfindən dəstək mexanizmlərinin olması sahibkarlıq və biznes subyektələrinin səmərəli fəaliyyətinin əsası kimi qiymətləndirilə bilər.

**Azərbaycanda iqtisadi islahatların sürətləndirilməsində və iqtisadi artımın artırılmasında texnoparklardan səmərəli istifadə perspektivləri**

Qeyd etdiyimiz kimi ölkəmizdə iqtisadi artım problemləri kifayət qədər aktual olaraq qalmaqdadır və bunlarla əlaqədar olaraq, müxtəlif iqtisadi mexanizmlərin hazırlanaraq dövriyyəyə cəlb edilməsi məsələləri diqqət çəkir. Hazırda yaradılması prosesləri sürətləndirilən sənaye parklarında da bu məsələlərə ciddi önəm verilir. Belə ki, növbəti illərdə sənaye parklarında yeni istehsal güclərinin formalaşdırılması və istismara verilməsi nəticəsində emal sənayesi məhsullarının çeşidinin və həcminin artacağını proqnozlaşdırmaq mümkündür. Amma, texnopark institutunun spesifik cəhətləri yüksək texnologiyaların daha çevik mənimsənilməsinə və transferinə imkan verir. Nəticədə, iqtisadiyyata kredit qoyuluşlarının, əsas kapitala yönəldilmiş vəsaitlərin artırılmasına, həmçinin əsas fondların yenilənməsinə, investisiyaların cəlbinin intensivləşdirilməsinə motivasiyanın artırılması və stimullaşdırıcı mexanizmlərin tətbiqi mümkün olur. Cədvəl 1-də Azərbaycanda 2014-2018-ci illərdə iqtisadi artıma təsir edən bir sıra göstəricilərin dinamikası verilmişdir və həmin cədvəl əsasında qeyd etmək olar ki, 2014-2018-ci illər üzrə istehsalın həcminin artımında və yeni iqtisadi artım mənbələrin yaradılmasında əsas kapitala yönəldilmiş vəsaitlərin həcmində demək olar ki, artım müşahidə olunmur. Bundan əlavə, əsas fondların dəyəri 2018-ci ildə 2015-ci ilə nisbətdə 72,1 mlrd. manat yaxud 65,1 % artmışdır. İqtisadiyyata kredit qoyuluşları orta illik 18,5 mlrd. manatdan 13 mlrd. manat səviyyəsinə qədər azalmışdır. Bu amillər baxımından texnoparklarda əlverişli fəaliyyət rejiminin yaradılması, vergi və gömrük güzəştlərinin tətbiq edilməsi sayəsində sahibkarlıq və biznes subyektlərinin fəaliyyətini əhəmiyyətli səviyyədə artırmaq mümkündür, bunlar isə özünü yüksək texnologiyalar əsaslı və məhsuldar istehsal qurğularının tikintisində, müəssisələrin yaradılmasında, texnologiyaların fəal şəkildə transferində, investisiya cəlbediciliyinin artırılmasında göstərə bilər. Başqa sözlə,



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

texnoparklarda əlverişli və stimullaşdırıcı fəaliyyət mexanizmləri hesabına ölkədə iqtisadi artıma təsir edə biləcək istiehsal sahələrinin yaradılması və səmərəli fəaliyyətin təşkili mümkündür.

**Cədvəl 1.**

**Azərbaycanda iqtisadi artıma təsir edən əsas göstəricilərin dinamikası**

| | Ölçü vahidi | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|
| **əsas kapitala yönəldilmiş vəsaitlər** | mlrd. man | 17,6 | 15,96 | 15,77 | 17,4 | 17,24 |
| **əsas fondlar** | mlrd. man | 0 | 110,7 | 124 | 169,1 | 182,8 |
| **iqtisadiyyata kredit qoyuluşları** | mlrd. manat | 18,5 | 21,7 | 16,4 | 11,8 | 13 |
| **iqtisadiyyata yönəldilən investisiyalar (bütün mənbələr üzrə)** | mlrd. mantan | 21,9 | 20,1 | 22,7 | 24,5 | 26 |
| **xarici investisiyalar, o cümlədən** | mlrd. dollar | 11,7 | 10,7 | 10,2 | 9,1 | 8,2 |
| **birbaşa xarici investisiyalar, o cümlədən** | mlrd. dollar | 8 | 7,5 | 7,3 | 5,7 | 4,1 |
| **qeyri-neft sektoruna** | mln. dollar | 1318,5 | 860,4 | 1706,2 | 813 | 967,1 |

**Mənbə: Cədvəl ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.**

Şəkil 3-də Azərbaycanda 2004-2017-ci illərdə bütün mənbələr üzrə investisiya qoyuluşlarının dinamikası verilmişdir. 2004-2017-ci illərdə iqtisadiyyata yönəldilən əsaslı kapital qoyuluşundan ümumi dinamikasından göründüyü kimi, həmin dövr ərzində ölkə iqtisadiyyatına əsaslı kapital qoyuluşu qeyri-sabit olmuşdur. Məsələn, 2004-cü ildə bu göstərici 5,9 mlrd. manat həcmində olmuşdursa, bu göstərici 2015-ci ildə 19,55 mlrd. və 2017-ci ildə isə 13,85 mlrd. manat səviyyəsində olmuşdur. Hesab edirik ki, texnopark institutunun sürətli inkişafı və səmərəli fəaliyyəti hesabına iqtisadiyyata bütün mənbələr üzrə əsaslı kapital qoyuluşlarını xeyli artırmaq potensialı yaradıla bilərdi.

**Şəkil 3.**

**Azərbaycanda bütün mənbələr üzrə əsaslı kapital qoyuluşu dinamikası (mln. manat).**




**Mənbə: Şəkil ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır. http://www.stat.gov.az.**

Şəkil 4-də Azərbaycanda 2005-2018-ci illərdə iqtisadiyyata yönəldilən investisiyaların ümumi dinamikası öz əksini tapmışdır və qeyd etmək olar ki, maliyyə çətinliklərinə və dünyadakı qlobal problemlərə baxmayaraq bu göstərici üzrə az da olsa artım tempi təmin edilmişdir.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Şəkil 4.**
**Azərbaycanda iqtisadiyyata yönəldilən investisiyaların ümumi dinamikası (mln.manat)**




**Mənbə: Şəkil ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır - https://www.stat.gov.az.**

Bundan əlavə, Şəkil 5-də Azərbaycanda 2005-2018-ci illərdə iqtisadiyyata yönəldilən xarici və daxili investisiyaların dinamikası üzrə müqayisəli təhlili verilmişdir. Buradan göründüyü kimi 2016-cı ildə başlayaraq, xarici investisiyaların həcmində nisbi azalma olsa da, daxili investisiyaların həcmi əksinə artım tempini bərpa etmiş və 2016-cı ildə 6490,3 mln. manat olmuşdursa, bu göstərici 2018-ci ildə 11874,9 mlrd.manat səviyyəsində qeydə alınmışdır.



**Şəkil 5.**
**Azərbaycanda iqtisadiyyata yönəldilən xarici və daxili investisiyaların müqayisəli dinamikası (mln.manat)**




**Mənbə: Şəkil ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır - https://www.stat.gov.az.**

Şəkil 6-da isə Azərbaycana 2005-2018-ci illərdə cəlb edilmiş birbaşa xarici investisiyaların dinamikası verilmişdir və göründüyü kimi 2015-ci ildən başlayaraq, birbaşa xarici investisiyaların həcmində azalma qeydə alınmış, belə ki, 2015-ci ildə birbaşa xarici investisiyaların həcmi 7483,1 mln. ABŞ dolları həcmində olmuşdursa, həmin göstərici 2018-ci ildə 4109,1 mln. ABŞ dolları təşkil etmişdir.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Şəkil 6.**
**Azərbaycana cəlb edilmiş birbaşa xarici investisiyaların dinamikası (mln. ABŞ doll).**




**Mənbə: Şəkil (ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır - https://www.stat.gov.az.**

Ölkədə iqtisadiyyatın şaxələndirilməsi, yeni istehsal güclərinin yaradılması, ixrac potensialının artırılması, investisiya cəlbediciliyinin təmin edilməsi, yüksək texnologiyalar əsaslı iqtisadiyyatın formalaşdırılması üçün yeni iqtisadi mexanizmlər vacibdir və aparılan təhlillər əsasında belə qənaətə gəlmək olar ki, texnopark institutunun inkişaf etdirilməsi müsbət nəticələr verə bilərdi. Texnoparklarda innovasiyaların yayılması, işlənməsi və tətbiqi üçün əlverişli şərait diqqət çəkir. Texnoparkların çoxfunksiyalı xüsusiyyətlərindən istifadə etməklə, qlobal şəraitdə ortaya çıxan yeni çağırışlara uyğun şəkildə iqtisadiyyatın modernizasiyasının sürətləndirilməsi mümkündür. Ölkəmizdə də milli iqtisadiyyatın strukturununun təkmilləşdirilməsində və innovatik inkişafın genişləndirilməsində texnoparklardan istifadə prosesləri başlamışdır. Artıq Sumqayıt Texnologiyalar Parkı 2009-cu ildən fəaliyyət göstərir və bu sahədə təcrübə toplanmaqdadır [6]. Bu Parkda yüksək texnologiyalar əsasında çoxlu çeşiddə rəqabətqabiliyyətli sənaye məhsulları, əsasən, elektrotexnika məmulatları və elektrik kabelləri istehsal olunur. Burada istehsal olunan innovatik məhsullar yerli bazarın tələbatını ödəməklə yanaşı, artıq ixrac edilməkdədir. Digər texnopark - Yüksək Texnologiyalar Parkı Pirallahıda yaradılır və bu texnoparkın bir neçə müəssisəinin tikintisi sürətlə davam etməkdədir. Şübhəsiz, bu proseslərin təşkilinə dövlət dəstəyi olmasaydı, bunlara nail olmaq qeyri-mümkün idi. Dövlət tərəfindən bu texnoparkın rezidentləri müəyyən müddətə vergilərdən və gömrük rüsumlarından azaddırlar [5]. Texnoparkların təşkilinə dövlət tərəfindən əsaslı kapital qoyuluşu ilə yanaşı, yerli və xarici investorların fəaliyyəti üçün əlverişli şərait yaradılmışdır. Texnoparklarda elmi-texniki yeniliklərdən istifadə etməklə, biznes layihələrinin cəlbediciliyi daha da artırılır. İdeyalar və təşəbbüslər adaptiv proseslərdən keçərək istehsala tətbiq olunur [8]. İnnovasiyaların tətbiqi və onun yayılması, ümumilikdə bu proseslər üzrə vahid tsiklin reallaşdırılmasında texnoparklar daha cəlbedici və səmərəli fəaliyyət məkanı kimi diqqət çəkirlər [4].

**Nəticə**

İqtisadi islahatların ölkəmizdə dərinləşdirilməsi prosesləri artıq daha intensiv mərhələyə keçməkdədir. Belə ki, müasir texnologiyalar əsaslı və innovasiya funksiyalarını özündə əks etdirən iqtisadiyyat sahələrinin, ilk növbədə, qeyri-neft sektoru sahələrinin inkişaf etdirilməsi ölkəmizdə strateji vəzifələr və hədəflər sırasında yer almışdır. Bu istiqamətdə bir sıra problemlərin həlli üçün həmin proseslərdə texnoparkların rolunun artırılması səmərəli ola bilərdi:



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

- texnopark institutunun beynəlxalq təcrübəyə uyğun olaraq və ölkəmizdə iqtisadi inkişaf proseslərinin, qeyri-neft sektoru sahələrinin spesifik cəhətləri nəzərə alınmaqla inkişaf etdirilməsi və rəqabətqabiliyyətli texnoparklar şəbəkəsinin genişləndirilməsi təmin olunmalıdır;
- ölkə iqtisadiyyatının neftdən asılılığının təmin edilməsi kimi strateji hədəfə çatmağın tezləşdirilməsi məqsədilə qeyri-neft sənayesi sahələri üzrə çoxfunksiyalı texnoparkların yaradılmasına üstünlük verilməli və bu proseslərə dünya təcrübəsində özünü təsdiq etmiş investor kompaniyaların və texnoloji şirkətlərin cəlb edilməsi mexanizmləri hazırlanmalı və həyata keçirilməlidir.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq olunmuşdur.
2. Əliyev Ş.T. Azərbaycan iqtisadiyyatı. Sumqayıt, 2018, 376 s.
3. Əliyev Ş.T. Xüsusi iqtisadi zonaların təşkili və inkişaf perspektivləri. İ.e.d. dissertasiyası. Bakı, 2015, 350 s.
4. Əliyev Ş.T. Xüsusi iqtisadi zonaların tətbiqi problemləri. Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2012, 360 s.
5. Sənaye parkları haqqında Nümunəvi Əsasnamə. AR Prezidentinin 2013-cü il 24 aprel tarixli Fərmanı ilə təsdiq edilib.
6. Sumqayıt Texnologiyalar Parkı. 22 dekabr 2009-cu il. - https://stp.az.
7. Tağıyev A.H. İnnovasiya (nəzəri və tətbiqi səpkidə). Bakı, "Təknur", 2018, 552 s.
8. Texnoparkların yaradılması üzrə beynəlxalq təcrübə. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu. Bakı-2017 69 s. http://ier.az.
9. Антипина Н.И. Особенности национальной инновационной системы Германии. Москва, Дрофа, 2013, 358 с.
10. Бильдина О.В. Государственная поддержка технопарков как организационной формы развития инновационной сферы национальной экономики. Дисс. канд. экон. наук. Москва, 2008, 209 с.
11. Британский опыт создания и управления технопарками. Фонд «Центр Инновационного Бизнеса». Екатеринбург, 2008, 23 с.
12. Гюльмамедов Р.Г. Технопарки как основа формирования национальной инновационной системы // Креативная экономика. – 2016, Том 10, № 1, С. 35-44.
13. Пономарев В.Н. Особые экономические зоны, технопарки и промышленные кластеры как инструменты инновационного развития. Дисс. канд. экон. наук. Москва, 2011, 207 с.
14. Технопарки и технополисы Западной Европы. - http://scicenter.online/mirovaya-geografiya-scicenter/tehnoparki-tehnopolisyi-zapadnoy-39341.html.




© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Алигейдар Гейдар оглы Махмудов***
***Перспективы повышения роли технопарков в процессах экономических реформ в Азербайджане***

***Резюме***

*В статье исследованы перспективы повышения роли технопарков в процессах экономических реформ в Азербайджане. Для этого раскрыта сущность и систематизированы проблемы проводимых экономических реформ. Рассмотрено мультипликативное влияние технопарков на экономические процессы за счет своих многофункциональных особенностей. Обоснована роль и важность технопарков в ускорении экономических реформ. Раскрыта эффективность технопарков в развитии перерабатывающей сферы на основе высоких технологий. Дан потенциал технопарков в производстве конкурентоспособной экспортно-ориентированной продукции и в создании сети эффективных предприятий. Исследовано и оценено влияние технопарков на эффективность экономического развития в стране. Раскрыта продуктивная деятельность технопарков в повышении доли ненефтяной сферы в процессах уменьшения зависимости экономики страны от нефтяного фактора. Рассмотрены проблемы совершенствования института технопарков в условиях глобальных тенденций и вызовов. Подготовлены обоснованные предложения о повышении роли технопарков в углублении и ускорении экономических реформ в Азербайджане.*

***Ключевые слова:*** *экономические реформы, технопарки, инвестиции, повышение роли технопарков в экономике, влияние технопарков на экономику, повышение роли технопарков в экономическом росте, стратегическая важность технопарков в экономических реформах.*

***Aliheydar Heydar Mahmudov***
***Prospects for increasing the role of technoparks in processes of economic reforms in Azerbaijan***

***Summary***

*The prospects of increasing the role of technoparks in the processes of economic reforms in Azerbaijan are explored in the article. The essence and problems of economic reforms is systematized for this purpose. The multiplier influence of technoparks on economic processes due to its multifunctional features is considered. The role and importance of technoparks in accelerating economic reforms is justified. The efficiency of technology parks in the development of the processing sphere based on high technologies is investigated too. The potential of technoparks in the production of competitive export-oriented products and in the creation of a network of efficient enterprises is given. The influence of technoparks on the processes and efficiency of economic development in the country is analyzed. The productive activity of technoparks in increasing the share of non-oil sphere in the processes of reducing dependence of the economy of the country on the oil factor is studied. The problems of improving the institute of technoparks in the conditions of global trends and challenges are considered. Proposals to enhance the role of technoparks in deepening and accelerating economic reforms in Azerbaijan are given in the end of the article.*

***Keywords:*** *economic reforms, technoparks, investment, increasing the role of technoparks in the economy, the impact of technoparks on the economy, increasing the role of technoparks in economic growth, the strategic importance of technoparks in economic reforms.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 10.02.2020.***
***Çapa qəbul olunub: 14.02.2020.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*